# "Bağışla, ürəyim" deyən şair haqqında bir neçə söz

**Başı göylərə ucalan bir qocaman palıd ağacını gözünüzün qabağına gətirin. Qollu-budaqlı, neçə illərin istisinə, soyuğuna dözüb, boy atmış, neçə-neçə nər igidə kölgə olmuş başı buluddan, kökü torpaqdan su içən bir palıd ağacı təsəvvür edin. Hansı zəhmət, hansı səbr, hansı dözüm onu min yaşına çatdırmışdı. Adama elə gəlir ki, al günəş altında zümrüd kimi şəfəq saçır üstündəki yaşıl yarpaqlar. Təkcə onlarmı?.. Bəs on il, yüz il, beş yüz il, min il geridə qalan, indi həyatda izi-tozu olmayan yarpaqlar necə? Bu möhtəşəmliyin əmələ gəlməsində, boy atmasında onların da zəhməti olmuşdu. Bax şairlik də belədi. Zaman-zaman boy atırsan, səni sevənlərin, duyanların əhatəsində. Dünənnən bu günə, bu gündən sabaha körpü olmaq üçün.**

Vahid Əlioğlu (Əliyev Vahid Əli oğlu) ədəbi mühitimizdə şeir və poemaları ilə tanınan istedadlı şairlərimizdəndir. Əsl vətəndaşlıq duyğusu, yaradıcı zəhmətin tərənnümü, təbiətə və torpağa bağlılıq, mərdlik və humanizm, dostluq və sevgi onun yaradıcılığının onurğa sütunu, şah damarıdır. Şairin müxtəlif illərdə "Ürək yanmasa", "Ayrılıq olmasaydı", "Sevən ürək həsrət çəkər", "Sevgi dolu ürəyim var", "Təkcə sənsən ürəyimdə", "Ürəyimlə neyləyim", "Kişi ömrü" və sair kitabları çıxmışdır. Üslubundan və xüsusiyyətindən asılı olmayraq, onun bütün əsərlərinin mayası, qida mənbəyi qəlbinin döyüntüləridir. Möhtəşəm sənət əsərləri ürəksiz, sevgisiz yarana bilməz. "Bağışla, ürəyim" adlı kitabda toplanan şeirlərin əsas xüsusiyyətləri fikirlə hissin vəhdəti, ağılla ürəyin ahəngidir. Kitabı vərəqlədikcə V. Əlioğlunun bütün əsərlərinin ağılla qəlbin vəhdətindən yarandığının şahidi olursan. Onun qəlbi doğma Azərbaycana, onun dünəninə, bu gününə, sabahına bağlıdır. Vahidin şeirlərini adları çox vaxt məzmunun özündən doğulur, məzmunun və formanın tələbindən yaranır. Əlbəttə, şərtilikləri də istisna deyil. Amma onun şeirlərinin adlarını müdaxiləsiz sıralayanda - "Bütün dünya "İlham" deyir", "Döyünən ürəyim - Azərbaycan", "Anam xəyala dalıb", "Əsgər", "Var", "Hücum edər ordumuz", "Borçalını yaşadanlar var olun"... bir fikir axını yaranır.

"Vahid Əlioğlu söz adamıdır, sözlə nəfəs alıb sözə nəfəs verən şairdir. O sanki şer yazmaq üçün dünyaya gəlib. Ona görə də vəzifədən, var dövlətdən heç vaxt dörd əlli yapışmayıb, qələmdən yapışıb. Onun var-dövləti şeirləridi. Bu şeirlərdə hər sözün ruhu var, rəngi var, çəkisi var. Sözün çəkisini bilən, məna çalarlarını dərindən-dərinə duyan, Tanrı tərəfindən verilən şairlik missiyasını ləyaqətlə yerinə yetirən Vahid Əlioğlunun qələmindən damla-damla kağıza səpələnən sözlər qiyməti olmayan bir xəzinədir".- İqtibas etdiyim bu fikirlər Vahid Əlioğlunun "Bağışla, ürəyim" adlı kitabına akademik Nizami Cəfərovun yazdığı ön sözdən götürülüb. Bu, əslində Vahid Əlioğlunun yaradıcılığına verilən qiymətdir.

Bilmirəm, nə sirrdirsə həmişə mənim üçün maraqlı olan adamlarla təmasda olanda aysberqlər haqqında fikirləşirəm: onların görünməyən tərəfi görünən tərəfindən daha dərində olur. Belə maraqlı adamlardan biri də Vahid Əlioğludur. Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri olan Vahid Əlioğlunun saf, təmiz və işıqlı dünyası ilə - "Bağışla, ürəyim" adlı kitabı ilə bir daha yaxından tanış oldum.

**Dünyada bir dünya qurduğum üçün,**
**Düz sözü hədəfə vurduğum üçün,**
**Haqlının yanında durduğum üçün,**
**Ocağa atılıb qalanan canım.**

Vahid Əlioğlunun şeirlərində dərd, kədər, ayrılıq, həsrət... boy göstərir. Əhrimənlərin qana çalxadığı bu dünyada haqsızlığa qarşı qılınc çalanda gözünü qan tutan, yağıya dönən, haqq yolunda qurulan körpülərə tac olmaq iddiasında olan, çölü gülən, içi dünyanın "atgetməz" işlərinə anasından cüda düşmüş cüyür balası kimi mələyən şairin özününkküdür və həm də bəşəridir. Dərdini, qəmini içinə doldurub qapısını qıfıllayan, sonra da onlara potik libas geyindirib şer şəklində ruhu, canı, nəfəsi olan canlı bir varlıq kimi üzə çıxarır.

**Vahid öz-özünü çoxdan ağlayıb,**
**Qəlbinə sancılan oxdan ağlayıb.**
**Dərd məni qolumdan tutub saxlayıb,**
**Dərdə çarə yoxsa, loğman neyləsin?**

Vahid Əlioğlunun sənətkar təbiətinin, şair xislətinin həqiqi mahiyyəti nədən ibarətdir? Şübhəsiz ki, belə zəngin yaradıcılıq aləminə malik bir şəxsiyyətin sənət genişliyini bir ya iki cəhətlə məh-



dudlaşdırmaq mümkün olmazdı. Onu tanıyanların ümumi bir Vahid Əlioğlusu olduğu kimi, hərənin öz şəxsi, fərdi Vahidi də mövcuddur. Yəni şairin əlvan dünyasından hər oxucu öz zövqünə, qəlbinə daha yaxın, daha munis olanı seçib sevir. Onun hər şeirinin öz hərarəti var. Şairin hərarətini ölçən cihaz olsaydı "Ürəyimə bir ox dəydi dərindən" istiliyinə çox yüksək dərəcəsini göstərərdi. Amma "Üç rəngli bayrağım bir daha enməz" şeirlərinin alovuna-atəşinə çox gümankı heç bir cihaz davam gətirməzdi. Həm bəhs olunan hadisələrin faciə şiddəti, həm də müəllif qəlbinin odu-alovu o qədər gurdur ki, öz-özünə alışan maddələr kimi bu səhifələrin də bir anda yanıb külə dönmək ehtimalı var.

**Bu Odlar yurdunun - Azərbaycanın**
**Hələ sağalmamış neçə dağı var.**
**Üç rəngli bayrağı dalğalanmayan,**
**Təbrizi, Dərbəndi, Qarabağı var.**

Yaxud:

**Bu dərdi daşımaq ən çətin işdi,**
**Vahid saz götürüb dərdlə deyişdi.**

Qədim bir rəvayətdə deyilir ki, insan tanrıdan üç şey diləyir: güc, səbir, müdriklik. Gücü ona görə istəyir ki, dünyada dəyişə biləcəklərini dəyişməyə qüvvəsi çatsın. Səbiri ona görə istəyir ki, dəyişməyə iqtidarı, gücü çatmayacaq şeylərə dözə bilsin, müdrüklüyü ona görə istəyir ki, birincilərlə ikinciləri dəyişik salmasın, çaşdırmasın, onları bir-birindən ayıra, seçə bilsin.

**Ürəyimə bir ox dəydi dərindən,**
**Elə bil ki, dağlar qopdu yerindən.**
**Deyirəm ki, öləcəyəm dərdindən,**
**Aylar keçdi, öləmmədim bağışla.**

Vahid bir şair olaraq yaxşı bilir ki, sözün sahibi onu haradan dərir, haradan seçib-seçmələyir. Zənnimcə, bəxtinə Vətənin mübarizələr, faciələr, fəlakətlər ömrü elə həm də şairin öz ömrüdür.

Gözümüzü açandan, özümüzü tanıyandan hamımız sınaqlara mübtəlayıq. Tanrının göndərdiyi bu sınaqlardan çıxmağı bacarmaq hər kəsin işi deyil. Ruhun nurlu və safdırsa heç bir qorxu və hürkü səni öz yolundan sapındıra bilməz, bu sınaqlardan həyat dərsi alıb möhkəmlənər, mərdləşərsən, amalın, iradən kristallaşar, dilində şükürənlıq, niyyət və əməlində saflıq təcalla tapar, inamında qətiyyət və yenilməzlik boy atar.

**Bu dərdi daşımaq ən çətin işdi,**
**Vahid saz götürüb dərdlə deyişdi.**
**Dünyam qra gəldi, dünyam dəyişdi,**
**Əllərim əlinə dəymir bir ildi.**

Şairin məhəbbət qoxulu şeirlərini oxuduqca oradakı kədəri, sevinci, həsrəti... görməmək olmur. Onun poeziyası çoxçalarlı, musiqi dili ilə desək polifonik poeziyadır. Onun yaradıcılığında oxucunu ən çox cəlb edən müdrikliyidir. Misralar duyumlu və anlaşıqlıdır, təzahür edən fikirlər öyüd, nəsihət şəklində söylənilmir. Vahid Əlioğlu həyata, həyati hadisələrə qəlbinin gözü ilə baxmağı bacaran şairdir. əgər belə demək mümkünsə o, açılmış cığırlarla deyil, ayaq dəyməyən yerlərlə irəliləyir, yeni yolların yolçusu olmağı daha çox sevir.

Psixoloji dəqiqlik, insanın ən zərif hisslərini görə və gördürə bilmək məharəti "Aslan müəllim" poemasında da nəzərə çarpır. Vahid Əlioğlunun son dövr yaradıcılığında "Aslan müəllim" poeması xüsusi yer tutur. Şair yaddaqalan psixoloji portretlər yaratmağı bacarır. Onun təşbehləri, bənzətmələri də yadda qalandır, görümlüdür, konkretdir. Bu əsərdə işıqlı ziyalı, mərd və xeyirxah azərbaycanlı kişisilə tanış oluruq.

"Bağışla, ürəyim" kitabında, qəlb sızladan səhnələr də var. Kitab bütölükdə bir oxucu kimi məndə parlaq duyğular oyatdı, fikrimə güc verdi, duyğularımı, düşüncələrimi yalnız müəlliflə deyil, bütün vətənpərvər insanlarla da bölüşmək istədim. Sədinin "Gülüstan"ında:

**Çu dər bəstə başəd çe danəd kəsi,**
**Ke göhər firuşəst ya piləvər...**

Beytində "qapı bağlı olanda kim nə bilsin ki, sahibi gövhər satandır, yaxud çərçi" - deyilir. Yaradıcı insanın əsərləri onun qəlb dünyasının, könül aləminin qapısıdır. Şair Vahid Əlioğlunun qapısından keçənlər - əsərlərini oxuyanlar onun gövhər kanı olduğunu bilərlər.

**"Bağışla, ürəyim" əsərindən insana inam hissiylə, mənəvi saflaşma, daxili təmizləşmə və bir sözlə kamilliyin yüksək məqamına qovuşmaq duyğularıyla ayrılırsan. Qədim yunan filosofu Aristotelin dediyi katarsis - elə budur. Ayrılıq həsrətindən, nisgilindən doğan şəfqət, nəciblik, mərhəmət hissi. Ancaq mənə elə gəlir ki, ayrılıqdan danışmaq lazım deyil. Yaxşı kitabla tanışlıq uzun müddətli, bəlkə də sonu gəlməyən, bitib tükənməyən ünsiyyətdir, mehribançılıqdır, möhkəm dostluqdur. Əziz dostunla uzun ayrılıqdan sonra belə onu yaddan çıxarmadığın kimi qəlbən səni özünə çəkən kitablarıda unutmursan, təkrar-təkrar ona qayıdırsan və yeni məziyyətlər aşkar edirsən. Ayrı-ayrı hissələrini, səhifələrini, misralarını, sözlərini, ifadələrini yaddaşında yaşadırsan, özünə məhrəm edirsən, fikirləşirsən, götür-qoy edirsən, onu xəyalında canlandırırsan, məhrəm kitabla danışırsan.**

**Əli Zalov,**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Analitik və üzvi kimya kafedrasının müdiri,**
**Kimya elmləri doktoru**